Təhsildə Qiymətləndirmə üzrə Beynəlxalq Assosiasiyanın prezidenti cənab Simus Hiqarti ilə Təhsil Nazirliyinin Şagird nailiyyətlərinin qiymətləndirilməsi şöbəsində görüş keçirilib.

Görüşdə şagird nailiyyətlərinin ana dili, riyaziyyat və təbiət elmləri ilə bağlı beynəlxalq qiymətləndirilməsi məsələləri üzrə fikir mübadiləsi aparılıb. Eyni zamanda şagirdlərin təkcə yaşa görə deyil, siniflər və kurrikulum üzrə qiymətləndirilməsi əsasında fənn kurrikulumlarının təkmilləşdirilməsi, müəllimlərin ixtisasartırmasının təşkili və digər məsələlər müzakirə edilib.